# Qazinin poetik duyğuları

**Gəncəli Vətən oğlu Sərxan Yolçuyev İkinci Qarabağ müharibəsi başlanan zaman könüllü olaraq cəbhəyə getmiş, savaşa qatılmışdır. Murovdağ uğrunda gedən döyüşlərdə ağır yaralanmışdır. Sərxan ara-sıra qələmə sarılaraq, Azərbaycan əsgərinin qəhrəmanlığından, Vətənin müqəddəsliyindən duyğulu şeirlər yazır. Oxuculara təqdim etdiyimiz "Vətən" şeirinin yazı tərzindən göründüyü kimi, arzu-istək dolu misralar elə səngərdəcə yaranıb.**

## VƏTƏN

*Bir arada görmək üçün fəda edərdim canımı,*
*Cənubu, Qərbi olmaqla – bütöv Azərbaycanımı.*
*Qarabağın gülşəninə qoy çiləsinlər qanımı.*
*Təki qanım dəyən yerlər çiçək açsın, çəmən olsun,*
*Təki Vətən yarımçıq yox, Bütövlüklə Vətən olsun!*

*Sənə qurban olsun, Vətən, canımız da, varımız da,*
*Otuz ildir səbr edərək, duz saxladıq yaramızda.*
*Mən razıyam, gəl, bölüşək iki şeyi aramızda,*
*Sənə düşən ZƏFƏR olsun, mənə düşən kəfən olsun,*
*Təki Vətən yarımçıq yox, Bütövlüklə Vətən olsun!*

*Arzum budur, Qarabağda saray tikdirsin Millətim,*
*Həyatində azadlığın gülün əkdirsin Millətim.*
*İstəyirəm, Qarabağda şəkil çəkdirsin Millətim.*
*İstəmirəm bu Vətənin həsrətini çəkən olsun!*
*Təki Vətən yarımçıq yox, Bütövlüklə Vətən olsun!*



**Sərxan YOLÇUYEV**

Xalq qəzeti.- 2023.- 26 iyun.- S.11.